**UOT 821.512.162**

**Aysel MƏHƏRRƏMOVA**
Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**lev.sabachka814@mail.ru**

# 1940-CI İLLƏRDƏ CƏNUBİ AZƏRBAYCANDA FORMALAŞAN ƏDƏBİ QÜVVƏLƏRİN YARADICILIĞINDA BÜTÖV VƏTƏN İDEYASI

**Açar sözlər:** XX əsr, Cənubi Azərbaycan, Təbriz, xalq hərəkatı, Balaş Azəroğlu, İbrahim Zakir, 40-cı illər
**Keywords:** The 20th century, Southern Azerbaijan, Tabriz, national movement, Balash Azeroglu, Ibrahim Zakir, the 1940s
**Ключевые слова**: XX век, Южный Азербайджан, Тебриз, народное движение, Балаш Азероглу, Ибрагим Закир, 40 годы

**Giriş.** XIX əsrdə bağlanan Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycan iki hissəyə parçalanaraq İran və Çar Rusiyasının tərkibinə qatıldı. Bunu qəbul etməyən xalq zaman-zaman Bütövlük, Azadlıq, Müstəqillik, Bərabərlik uğrunda mübarizə aparmalı oldu. Lakin hər dəfə bu hərəkat amansızlıqla yatırılır, onun iştirakçıları isə dar ağacından asılır, zindanlara atılırdı. Belə hərəkatlardan biri XX əsrin 40-cı illərini əhatə edən, yəni 1941-1946-cı illər Cənubi Azərbaycan demokratik və milli-azadlıq hərəkatıdır. İranda Rza şahın özbaşınalığı, ölkəni xalqlar həbsxanasına çevirməsi, feodalların, mülkədarların xalqa zülm etməsi, işsizlik, yoxsulluq, aclıq, fanatizm, despotizm və s. son həddinə çatmışdı. Bu ictimai-siyasi hadisələrin burulğanında inləyən xalqa kömək etmək üçün, mövcud qüsurları, ictimai xəstəlikləri aradan qaldırmaq üçün mütərəqqi və inqilabçı qüvvələrə arxalanmaq, onunla birlikdə mübarizə aparmaq dövrün söz sənətinin əsas tələblərindən biri idi. Xalqa yaxın olan realist qələm sahibləri onun başa düşəcəyi dildə dövrün ictimai eybəcərliklərini, sosial ədalətsizliyi tənqid atəşinə tutur, satira və yumordan geniş istifadə edirdilər.

40-cı illər hərəkatını tarixi dönəmlərinə görə üç mərhələyə bölmək olar:

I mərhələ. 1941-ci il İkinci Dünya müharibəsinin başlanması, Sovet, İngiltərə, ABŞ hərbi qoşunlarının İrana daxil olması, Rza şahın devrilməsi və ölkədən sürgün edilməsi ilə xalq hərəkatının canlanması.

II mərhələ. Müharibənin qurtarması, İrandan müttəfiq qoşunlarının, o cümlədən Cənubi Azərbaycandan Sovet qoşunlarının çıxarılması və 1945-ci ilin yayından etibarən əksinqilabın fəallaşması.

III mərhələ. AMH- nin yaradılması uğrunda cəhdlər. 1945-ci il dekabrın 12-də AMH-nin yaradılması və onun bir ildə gördüyü işlər.

İkinci Dünya müharibəsində İran dövləti öz bitərəfliyini elan etsə də, əslində Almaniyanı leqal və ya qeyri-leqal şəkildə dəstəkləyirdi. Buna görə “1921-ci il Sovet–İran müqaviləsinin 6-cı bəndinə əsasən 1941-ci il avqustun 25-də SSRİ, az sonra ingilis və ABŞ qoşunları İran ərazisinə yeridildi. Sovet qoşunları Cənubi Azərbaycanda möhkəmləndi. Müttəfiqlərin tələbi ilə Rza şah öz oğlu Məhəmmədin xeyrinə hakimiyyətdən uzaqlaşdırıldı və ölkədən sürgün edildi” [1, s.190]. Bütün bu olaylar inqilabi hadisələrin canlanmasına rəvac verdi. Xalq ayağa qalxdı və bu əlverişli şəraitdən istifadə edərək öz tələblərini irəli sürməyə başladı: demokratik

respublika idarə üsulunun qurulması, mülkədar-feodal qruplaşmasının məhdudlaşdırılması, xalqın vəziyyətinin yaxşılaşdırılması, ana dilində məktəblərin açılması, dərsliklərin hazırlanması, azad mətbuatın, ədəbiyyatın yaradılması, onların nəşri və s.

"1941-ci il sentyabrın 29-da Tehranda İran Xalq Partiyası yarandı. Daha sonra bir sıra partiya, təşkilatlar təsis edildi. Onların arasında "Azərbaycan cəmiyyəti", "Azərbaycan zəhmətkeşlər təşkilatı", "Demokratik tərəfdarlar mərkəzi" də vardı. Bu cəmiyyət və təşkilatların müstəqil mətbuat orqanları da yarandı və nəşrə başladı. "Azərbaycan" qəzeti, "Ədəbiyyat səhifəsi", "Yumruq", "Vətən yolunda", "Qızıl əsgər", " Zidd – faşist" və s." [1, s.191]

Beləliklə, inqilabi hərəkatın I mərhələsində milli şüurun oyanışı və inkişafı yüksək dərəcəyə çatdı. 1942-1944-cü illərdə bir sıra nüfuzlu qəzet-jurnallar Azərbaycan dilində çıxmağa başladı. Dil məsələsi xüsusi önəm daşıyırdı. Müəllimlər, mətbuat işçiləri, söz-ədəbiyyat adamları dilin qorunmasında, saflığında mühüm rol oynayırdılar.

1945-ci ilin mayında müharibənin qurtarması ilə müttəfiq qoşunları da İran ərazisindən hissə-hissə çıxarıldı. Yaydan isə artıq əksinqilabi qüvvəllər fəallaşdılar və inqilab üzərinə hücumu genişləndirdilər. Buna cavab olaraq ölkədə silahlı fədai dəstələri yaradıldı. Lakin bu dəstələr çox kiçik idi və dağınıq, kortəbii şəkildə döyüşürdülər. Odur ki, sentyabrın 3-də 77 nəfərdən ibarər bir qrup ziyalı Azərbaycan Demokratik Firqəsinin (ADF) yaradılması üçün xalqa müraciət etdi. Tezliklə S.C.Pişəvəri başda olmaqla sentyabrın 23-də ADF-nin ilk təsis konfransı keçirildi. Sentyabrın 5-dən isə artıq "Azərbaycan" qəzeti ana dilində nəşrə başlamışdı.

Bütün bu tarixi hadisələrin ədəbiyyatda, xüsusilə poeziyada təsvir və tərənnümü xüsusi önəm daşıyırdı. Həm yaşlı ədəbi nəsil, həm də yeni ədəbi gənclik demokratik inqilabın poetik obrazını yaratmışdı. Əli Fitrət, Mir Mehdi Etimad, İbrahim Zakir, Hilal Nasiri kimi yaşlı nəslin nümayəndələri Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Billuri, İsmayıl Cəfərpur və b. ilə bir arada yazıb-yaradırdılar. Onlar xalqın yanında, xalqın cərgəsində idilər. Əsərlərini xalqın başa düşdüyü heca vəznində yazırdılar. Xüsusilə yeni gənclik öz poetik fikir yükünü bu vəznlə xalqa ötürə bilirdi.

**1940-cı illərdə Güney ədəbiyyatında siyasi lirika.** Mövzusuna görə 40-cı illər siyasi lirikası iki istiqamətdə inkişaf edirdi:

1. Xalqı mübarizəyə, birliyə səsləyən, fədailəri ruhlandıran şeirlər.
2. Faşizmi pisləyən, qamçılayan satirik şeirlər.

Birinci qisim şeirlər anında yazılır, "Yumruq", "Vətən yolunda", "Qızıl əsgər" kimi qəzetlərdə ana dilində çap edilərək dərhal xalqa çatdırılırdı. Bu dönəmdə ən çox fəallıq göstərən gənc şair Balaş Azəroğlunun yaradıcılığında bu səpkili şeirlər yetərincə idi. Onun "Çağırış" şeiri bu mənada daha çox diqqəti çəkir:

Gəlin, vətəndaşlar, gəlin, a dostlar,
Şairin sizlərə şad xəbəri var!

Şeir sadə vətəndaşları – əkinçiləri, biçinçiləri, çobanı, muzduru, ərbabı Azərbaycan Demokratik Firqəsinin ətrafında sıx birləşməyə çağırırdı.

Qoy səsim yayılsın şəhərə, kəndə,
Qoy gəlsin ərbab da, əkin əkən də.

Ayağı çarıxlı, əli çomaqlı,
Uzun yapıncılı, dəri papaqlı,
Muzdurlar, çobanlar, de, kim var gəlsin,
Vətənin qədrini duyanlar gəlsin [2, s.40]

Şeir xüsusi vərəqələrdə dərc olunaraq Təbrizdə küçə-meydanlarda yayılırdı. Maraqlı bir fakt da vardı ki, 1945-ci il oktyabrın 2-də bu vərəqələr ADF-nin Birinci qurultayında onun məramnamə və nizamnaməsi ilə bərabər nümayəndələrə paylanmışdı.

İkinci qisim şeirlər də iki yerə bölünürdü:

1. Faşizmin mütləq məğlub olacağını əks etdirən və bunu xalqa inandıran şeirlər.

2. Faşistlərdən kömək gözləyən yerli irticanı ifşa edən şeirlər.

Burada yaşlı nəslin təsir dairəsi daha güclü idi. Əli Fitrət, Hilal Nasiri, Mir Mehdi Etimad kimi yazarlar faşizmin dünya xalqları üçün böyük bəlaya çevrildiyini və mütləq məğlub olaçağını əks etdirən poetik nümunələr yazaraq çap etdirirdilər. Bu ədəbi nəslin yaradıcılığı özündən əvvəlki nəslin – hələ Birinci Dünya müharibəsi illərində alman imperalizminin əleyhinə çıxış edən Səid Səlmasi, Xazim Təbrizi, M.Ə.Möcüz kimi sənətkarların poeziyası üzərindən yaranıb formalaşırdı. Cənubun M.Ə.Sabiri hesab olunan Möcüzün satirasında, həcvlərində həm İran şahlıq rejimi, həm də Almaniyanın işğalçılıq siyasəti öz layiqli cavabını almışdı:

Taxtuvu tabut edər bir gün sənin də ruzigar,
Kimsəyə rəhm etməz ol zalım fələk, ey Vilhelm! [3, s.15]

Əli Fitrət isə belə yazırdı:

Zülmün evin təbiət əli eylər xarab,
Zalimlərin dilində olar daim iztirab,
Hitler əgərçi zülm elədi çox cəmaətə,
...Çəkməz o qədər, sən görəcəksən bu ruzigar... [4, s.15]

Göründüyü kimi, Əli Fitrətin şeiri Möcüz satirasının poetik ideya davamıdır. Hər iki əsərdə alman imperalizminin və faşizminin xalqa çəkdirdiyi zülm təsvir olunur.

"1941-1943-cü illərdə İran adlanan yerdə, xüsusilə Güney Azərbaycanda antifaşist hərəkat həm sürətlə, həm də kütləvi surətdə inkişaf etdiyindəndir ki, mütərəqqi görüşlü şairlərin, demək olar ki, hamısı bu mövzuya müraciət edirdi" [5, s.9].

Bu dönəmdə poeziyada siyasi lirika öndə gedirdi. Siyasi lirikanın ikinci qolu olan sarkazm daha güclü idi və xalqın faşizmə qarşı birləşməsində, döyüşməsində böyük rol oynayırdı. Faktlara görə, faşist siyasi qüvvələrinin agentləri İran məktəblərində müəllim kimi işləyərək İran dövlətinə, burada yerləşmiş müttəfiq qoşunlara, onların fəaliyyətinə nəzarət edirdi. İranın yerli faşistpərəst irtica qüvvələri isə almanlara müxtəlif yollarla yardım edir, onlara dəstək olurdu. Bu faktın özü neçə-neçə satirik şeirin mövzusuna çevrilmişdi. "Zidd-faşist" qəzetində gənc Balaş Azəroğlunun çap etdirdiyi "Ay Hacı" şeiri bunun bariz nümunəsidir:

Öz aramızdı, ay Hacı, çox pis olub halın sənin,
Bu Hitlerin yolunda da getdi tamam malın sənin! [6, s.408]

**İbrahim Zakirin mübariz ruhlu şeirləri.** İbrahim Zakirin şeirləri də bu mənada çox xarakteriktir. Eyni adlı qəzet-vərəqlərdə dərc edilmiş şairin "Mənə nə", "Bas eşiyə, irtica", "Qaranlıq", "Ara həkimləri", "İnsan yeridir" kimi şeirlərində İranın hakim dairələri, xalqın qanını içən feodal-mülkədarlar, xanlar-bəylər, mollalar tənqid atəşinə tutulur, xalqı mübarizəyə səsləyirdi. "Qaranlıq" şeirində şair göstərir ki, "Qəflətdə qoyub işçini, dehqanı qaranlıq, // Yoldan çıxarır, azdırır insanı qaranlıq!" [7, s.12]. Şeir hələ mübarizənin başlandığı dövrün əvvəlini göstərir. İnqilabın qalib gəldiyi zamanda isə şair yazırdı:

Yağlı diliz kütləni aldatmadı,
Laylanıza Azər eli yatmadı,
Ölkəsini özgələrə satmadı,
Hiyləlәriz çıxdı boşa, tutmadı!
Qoy böyük oğlun keşiyə, irtica,
Bitdi işin, bas eşiyə, irtica! [7, s.16]

İnqilab dalğalarının böyüyərək bütün ölkəni bürüdüyü anları təsvir edən şair haqlı olaraq göstərir ki, burada daha irticaya, satqına, qaniçənə, zülmkara yer yoxdur, onlar getməlidir. Çünki xalq daha onları eşitmir, görmür, onlara inanmır. Öz vətənlərinə sahib çıxaraq onu yadellilərdən qorumağa hazırdır.

İ.Zakir faşizmi ifşa edən əsərləri ilə də yadda qalıb. Dünyanı hiyləgərcəsinə tutmaq xülyasının boşa çıxdığını görən şair yazırdı:

Pozulub Avropada nəqşəsi çün hiyləgərin,
Ölsə də tutmayacaq hiyləsi çün hiyləgərin! [7, s.23]

"İstibdad rejimi, zülm, şər həmişə sənət qırmancı ilə qamçılanmışdır. İran mövzusunda yazıb-yaradan şairlərin ədəbi irsi bu cəhətdən çox xarakterikdir... Həqiqi sənətkar əyrini düzdən ayırmağı bacarır, əsrinin, zamanının eşidən qulağına, danışan dilinə çevrilirdi..." [8, s.74]

**Nəticə.** Bu illərdə demokratik fikrə arxalanan, xalqın ruhunu oxşayan, sənətdə döyüşkən siyasi lirikanı əsas götürən yeni şairlər nəsli, yeni ədəbi qüvvələrin yaranıb formalaşması da çox sürətlə gedirdi. Dövrün ən böyük ədəbi hadisələrindən biri Təbrizdə 1945-ci ilin yanvarında "Vətən yolu" qəzetində "Şairlər məclisi"nin yaradılması idi. Yeni ədəbi gənclik bu "məclis"də fəal iştirak edir, yaşlı nəslin təcrübə-biliyindən faydalanırdı. Yeni gəncliyin məqsədi, məramı vəzifəpərəst, şovinist olan köhnə dünyanı, onun xalqa zidd qanunlarını satira atəşinə tutmaq, yeni dünyanı isə təsvir, tərənnüm etmək idi. Filologiya elmləri doktoru, professor Almaz Əliqızı öz tədqiqat işində yazırdı: "Cənubi Azərbaycan poeziyasının 1946-cı ilə aid səhifələrinin təhlili göstərir ki, o, həyat gerçəkliyini və mübarizəni tərənnümlə, təsvirlə kifayətlənməyib, eyni zamanda, cəlbetmə, təşkilatlandırma işini də öz üzərinə götürmüşdür" [5, s.244]. Demək, yeni ədəbi gəncliyin baş mövzusu Vətən, onun azadlığı, bütövlük ideyası idi.

Ədəbiyyatşünas Qafar Kəndli öz tədqiqat əsərində Güney Azərbaycanın sonrakı dönəmlərinin – 60-cı illər ədəbiyyatından bəhs edərkən yazırdı: "Cənubi

Azərbaycan xalqının bugünkü demokratik-realist ədəbiyyatı milli-azadlıq mübarizəsinin alovları içərisindən yaranmışdır. Bu ədəbiyyat özündən əvvəlki ədəbi irsin, xüsusilə 1941-1946-cı illərdə yaranan demokratik-realist ədəbiyyatın ən yaxşı ənənələri əsasında inkişaf edir" [9, s.1].

Filologiya elmləri doktoru Sabir Əmirov isə özünün "Cənubi Azərbaycan Milli Demokratik Ədəbiyyatı (1941-1990)" əsərində qeyd edir: "Ədəbi hərəkat öz başlanğıcını uca dağların, sıldırım qayaların qoynundan axan nəhəng çaylara çox oxşayır. Bu nəhrlər müxtəlif təbiət hadisələrinin təsiri ilə axarını, yatağını, mənbələrini dəyişsə də, onlar üçün başlıca atribut daima çağlayıb axmaqdan, mənzil başına can atmaqdan ibarətdir" [10, s.10].

Beləliklə, 40-cı illər hərəkatı Cənubi Azərbaycanda böyük təbəddülatlar yaratdı. İstər ictimai-siyasi sahədə, istərsə də mədəniyyət, ədəbiyyat sahəsində çox böyük işlər görüldü. Siyasi cəbhədə olan coşqunluq demokratik ədəbiyyatın, xüsusilə siyasi lirikanın yaranıb formalaşmasında da əsas rol oynadı. Realist ədəbiyyatla yanaşı romantik ədəbiyyatda da inkişaf prosesi güclü gedirdi. Bu illərin gənc şairləri sonralar Azərbaycan ədəbiyyatının zənginləşməsində böyük rol oynayan görkəmli sənətkarlar səviyyəsinə yüksəlmişlər.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Azərbaycan tarixi. XI sinif, dərslik. Bakı: "Çaşıoğlu", 2002, 352 s.
2. Azəroğlu Balaş. Seçilmiş əsərləri. Bakı: "Azərnəşr", 1959, 203 s.
3. Möcüz M.Ə. Seçilmiş əsərləri. Bakı: "Azərnəşr", 1954, 257 s.
4. Əli Fitrət. "Elm Azər". Təbriz, 1946
5. Əliqızı Almaz. Güney Azərbaycan Ədəbiyyatı. Mərhələlər, təmaüllər, etüdlər. Bakı: BDU nəşriyyatı, 1998, 326 s.
6. "Şairlər Məclisi". № 3-4, Təbriz, 1945
7. Zakir İbrahim. Mübariz gənclər. Bakı: "Azərnəşr", 1955, 72 s.
8. Ağazadə Yadulla. İran istibdad rejimi satira güzgüsündə. Cənubi Azərbaycan tədqiqləri. 3-cü cild, Bakı: "Elm və təhsil" 2016, 248 s.
9. Kəndli Qafar. 1941-1946-cı illərdə Cənubi Azərbaycan demokratik ədəbiyyatının inkişafı. Namizədlik dis. Bakı: ADPU, 1955, 398 s.
10. Əmirov Sabir. Cənubi Azərbaycan Milli Demikratik Ədəbiyyatı (1941-1990). Bakı: "Elm", 2000, 257 s.


***Aysel Maharramova***

**The idea of the independent and entire countryin the creative activity of literary forces formed in Southern Azerbaijanin the 1940's**

***Summary***

Thus, the movement that started in the 1940$^{s}$ introduced significant innovations in southern Azerbaijan. Major work has been done in the socio-political sphere, as well as in the field of culture and literature. It was especially during these years that a new generation of poets relying on democratic thought, caressing peoples spirit stimulated the creation and formation of new literary forces.

The uplift in the political front played a major role in the creation and formation of the democratic literature, especially of the political lyric.

The author of the article analyzes the Liberation Movement of Southern Azerbaijan in 1941-1946 years, the creative activity and struggle of literary forces formed in that period as a research object. The unity of representatives of both older literary generation and the new literary youth for socio-political struggle, their great activities and literary examples have been brought to notice in the article. The examples of political lyrics of Mojuz, Zakir and Balash Azeroglu found their reflection in the article. Political stages of the time and types of political lyrics have been studied by the researcher attentively.

There are citations of previous investigations related with the subject of such scientists as Gafar Kandli, Sabir Ahmadov and Almaz Aligizi cited in the article.

***Айсель Магеррамова***

**Идея целостности Родины в творчестве литераторов, сформировавшихся в Южном Азербайджане в 1940 году**

***Резюме***

Таким образом, движение 1940-х годов создало большие инновации на Юге Азербайджана, бала проделана большая работа в общественно-политической сфере, а также в области культуры и литературы. Именно в эти годы новое поколение поэтов вдохновленное демократической мыслью, воплотило дух народа, дало толчок возникновению и формированию новых литературных сил. Беспорядки на политическом фронте сыграли ключевую роль в появлении демократической литературы,особенно политического лиризма.

В своей статье автор, взяв как обьект исследования творчество и борьбу литераторов, сформировавшихся в тот период,привлекает анализировать

Национальное освободительное движение, произошедшее в Южном Азербайджане в 1941-46 годах. Доводятся до сведение совместное присоединение к общественно-политической борьбе и старшего литературного поколения и новой литературной молодёжи,их великие дела,написанные ими литературные образцы.

В статьте нашли своё отражение и образцы политической лирики Моджуса, Закира, Балаш Азероглу. Иакже в статье даны цитаты, связанные с темой, из прерыдущих исследовательских работ.

Исследовательские работы Гафара Кендли, Сабира Амирова, Алмаз Алигызы относятся к этому типу.